# Ali Məqamlı Rəhbər İmam Hüseynin (ə) şəhadətinin “şam-e qəriban” gecəsi təşkil olunan əza mərasimində iştirak etdi - 14 /Nov/ 2013

Bu gecə (cümə axşamı) – Həzrət Əba Əbdillah Hüseynin (ə) şəhadətinin “şam-e qəriban” gecəsi İmam Xomeyni (r.ə) adına hüseyniyədə Ali Məqamlı Rəhbərin iştirakı ilə Kərbəla ağasına və onun vəfalı silahdaşlarına həsr olunan matəm mərasimi təşkil olundu.

Rəsmilərdən bir qrupunun və xalqın müxtəlif təbəqələrindən olan minlərlə insanın iştirak etdiyi mərasimdə Höccətül-İslam vəl-muslimin Ali əzəmətli Aşura hadisəsinin müxtəlif aspektlərini şərh etdi, cənab Səmavati və Murtəza Tahiri İmam Hüseyn (ə) və səhabələrinin çəkdiyi müsibətlərdən söz açdılar.

Qeyd edək ki, İmam Xomeyni (r.ə) adına hüseyniyədə təşkil olunan matəm mərasimi 24 aban (11 məhərrəm) tarixinə qədər davam edəcək.

Materialdan istifadə edərkən WWW.LEADER.İR saytına istinad zəruridir